AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ

# SƏRƏNCAM

№ 67

Bakı şəhəri 18 fevral 2015-ci il

AMEA-da doktorluq imtahanlarının qəbulu qaydalarının təkmilləşdirilməsi haqqında

Son illər Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinə AMEA-nın doktorantura və dissertantura təhsili həyata keçirən elmi tədqiqat müəssisələrindən doktorluq imtahanlarının müxtəlif səbəblərdən sessiyadankənar verilməsi üçün çoxsaylı müraciətlər daxil olur. Doktorluq imtahanlarının sessiyadankənar qəbul edilməsi AMEA-da fəlsəfə doktoru hazırlığı üzrə təhsilin dövlət standartlarına uyğun təşkilinə, tədris proqramlarının mənimsənilmə səviyyəsinə, doktorant və dissertantların peşə biliklərinə dərindən yiyələnməsinə, həmçinin onların fərdi iş planlanlarının tam yerinə yetirilməsinə mənfi təsir göstərir, tədris prosesində bir sıra hüquqi və təşkilati problemlər yaradır. Bunları nəzərə alaraq:

1. AMEA-nın doktorantura və dissertantura təhsili həyata keçirən elmi müəssisələrində doktorluq imtahanlarının qəbulu yalnız müəyyən olunmuş sessiyalar dövründə həyata keçirilsin.
2. AMEA-nın elmi müəssisələrinin rəhbərlərinə və AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinin rəisi, texnika üzrə elmlər doktoru Əminağa Sadıqova tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndinin icrası təmin edilsin.
3. Sərəncamın icrasına nəzarət AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT